Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Samir Tağıyevin 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə "Azadlıq 2015" siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi Teyyublu Xəzər Qardaşəli oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 9 oktyabr 2015-ci il tarixli 67 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 11 oktyabr 2015-ci il

Mən, ekspert qrupunun üzvü Samir Tağıyev 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə "Azadlıq 2015" siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi Teyyublu Xəzər Qardaşəli oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 9 oktyabr 2015-ci il tarixli 67 saylı yazılı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə "Azadlıq 2015" siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi Teyyublu Xəzər Qardaşəli oğlu 9 oktyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək 27 saylı Sabunçu ikinci seçki dairəsi üzrə namizədliyi həmin blok tərəfindən irəli sürülmüş Əliyev Fuad Ağasi oğlunun namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının qərarının əsassız olmasını bildirmiş və müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipini əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Ərizəçi ilə əlaqə yaradılmış, araşdırmada iştirak etmək hüququ barədə ona məlumat verilmişdir.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 10 oktyabr 2015-ci il tarixli rəydən görünür ki, deputatlığa namizəd F.A.Əliyev mülkiyyət hüququ əsasında ona məxsus əmlakını (nəqiliyyat vasitələrini) gizlədərək bu barədə seçki sənədinə düzgün məlumat daxil etməmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinə əsasən namizədin qeydə alınması ücün təqdim edilən zəruri seçki sənədlərində məlumatlar düzgün olmadıqda onun qeydiyyatından imtina üçün əsas yaranır.

Beləliklə, hərtərəfli, obyektiv və qərəzsiz araşdırma ilə şikayətin təmin olunması və dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi üçün hüquqi əsasların olmadığı müəyyən edilmişdir.

Qeyd olunanlara əsasən şikayət əsassız olduğundan təmin edilməməli, 27 saylı Sabunçu ikinci seçki dairəsi dairə seçki komissiyasının F.A.Əliyevin namizədliyinin qeydə alınmasından imtina edilməsi barədə 8 oktyabr 2015-ci il tarixli 21/56 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənlər əsas götürülərək Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 28.4-cü, 58.1.5-ci, 59-cu, 60.2.3-cü, 112-ci, 112-1-ci, 148.1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **rəyə gəldim:**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə “Azadlıq 2015” siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi Teyyublu Xəzər Qardaşəli oğlunun 9 oktyabr 2015-ci il tarixli 67 saylı müraciəti əsassız olduğundan təmin edilməsin və onun namizəd kimi qeydiyyatından imtina edilməsi barədə həmin dairə seçki komissiyasının 8 oktyabr 2015-ci il tarixli 21/56 saylı qərarı qüvvədə saxlanılsın.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Samir Tağıyev